PARADIGMA, No.2, 2025, səh.37-45
https://doi.org/10.30546/30015.2025.2.112

# SƏNAYE NÜMUNƏLƏRİNİN VƏ TİCARƏT NİŞANLARININ MÜHAFİZƏSİ: HÜQUQİ ÇƏRÇİVƏ VƏ TƏKLİFLƏR

**E.M. Məmmədov**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: Elmir.Mammadov@student.au.edu.az

**Xülasə:** Tədqiqat işi sənaye nümunələri və ticarət nişanlarının hüquqi tənzimlənməsi proseslərini, problemlərini araşdırır. Məqsəd texnoloji yeniliklərdən istifadə etməklə qorumanın səmərəliliyini artırmaqdır. Analiz metodundan istifadə edilib, inkişaf etmiş ölkə təcrübələri müqayisə olunub, piratçılıq, plagiat və patent pozuntularının qarşısını alma üsulları dəyərləndirilib. Nəticədə hüquqi məsuliyyətin artırılması və beynəlxalq normativ bazanın tətbiqi təklif olunur.

**Açar sözlər:** sənaye nümunəsi, əmtəə nişanı, patent, patent hüququ, əqli mülkiyyət, ticarət nişanı

## Giriş

SSRİ-nin dağılması postsovet dövlətlərinin iqtisadiyyatında neqativ hadisələrə səbəb oldu və xeyli miqdarda sənaye müəssisəsinin tamamilə və ya qismən dayanmasına səbəb oldu. Bu da öz növbəsində onların istehsal etdiyi məhsulların ya ümumiyyətlə tələb olunmaması, və ya nisbətən ucuz yaxud daha keyfiyyətli idxal ilə əvəz edilməsi ilə nəticələndi.

Azərbaycanda müstəqillik əldə ediləndən sonra bazar iqtisadiyyatı şəraitində bu sahələrdə yeniliklərin və islahatların həyata keçirilməsi nəticəsində yeni mərhələyə qədəm qoyuldu.

Hər bir müəssisə öz sənaye nümunəsini digərlərindən fərqləndirmək üçün müxtəlif yeniliklər edir. Yaradılmış sənaye nümunəsini digər sahibkarlar tərəfindən mənimsənilməməsi üçün mühafizə etdirmək önəmli məsələlərdən biri kimi çıxış edir. Məhz bu səbəbdən sənaye nümunəsinin sahibi onu mühafizə etmək üçün əqli mülkiyyət idarəsində qeydiyyatdan keçirməlidir ki, bununla da ona sənaye nümunəsinin başqa şəxslər tərəfindən təqlid edilməsinin qarşısının alınmasına müstəsna hüquq verir. Bununla da biznesin rəqabət qabiliyyəti və gəlir səviyyəsi artır.

Əqli mülkiyyət çox geniş formada sənaye, elmi, ədəbi və bədii sahələrdə əqli fəaliyyət nəticəsində yaranan qanuni hüquqlar anlayışını ehtiva edir. Dövlətlərin əqli mülkiyyəti qorumaq üçün iki əsas səbəbi vardır: Birincisi, yaradıcıların yaradıcılıqdakı mənəvi və iqtisadi hüquqlarına və cəmiyyət üçün bu əsərlərin əlçatanlığına qanuni ifadə verməkdir. İkincisi, dövlət siyasəti çərçivəsində yaradıcılığı və onun nəticələrinin tətbiq edilməsini, həmçinin iqtisadi və sosial inkişafa qatqı verməli olan ədalətli ticarəti təşviq etməkdir.

**Tədqiqat**

Əqli mülkiyyət ənənəvi olaraq “sənaye mülkiyyəti” və “müəlliflik hüququ” -dan ibarət olan 2 qola ayrılır. Ədəbi, bədii və elmi əsərlər kimi göstərilən sahələr əqli mülkiyyətin müəlliflik hüquqları sahəsinə daxildir. İfaçı sənətçilərin çıxışları, fonoqramlar və yayımlar kimi olan sahələr “əlaqəli hüquqlar” da adlanır. “Sənaye mülkiyyəti” ifadəsi isə ixtiraları və sənaye nümunələrini özündə əks etdirir.

**ƏQLİ MÜLKİYYƏT**

kompüter proqramları, elmi, ədəbi və bədii əsərlər;

İfaçılıq fəaliyyəti, fonoqram istehsalı

İxtiralar,elmlər,kəşflər

Faydalı modellər və sənaye nümunələri

əmtəə və xidmət nişanları

**Şəkil 1. Əqli mülkiyyətin sahələri**

Analoji sıralama Azərbaycan Respublikasının qanunvericiliyində də öz yerini tapmışdır və “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” 22 may 2012-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin [4] məzmununa görə, əqli mülkiyyətə aid edilən obyektləri müəyyən etmək olar. Həmin maddədə əqli mülkiyyət hüquqları – müəlliflik hüququnun obyekti olan əsərlərə, ifalara, fonoqramlara, yayım təşkilatlarının verilişlərinə, inteqral sxem topologiyalarına, məlumat toplularına, folklor nümunələrinə (ənənəvi mədəni nümunələrə), ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə hüquqları əhatə edir. Elə məhz bu obyektlər “əqli mülkiyyət” termini ilə ifadə olunur. [7, s.12-13]

Sənaye nümunəsi - məmulatın yeni zahiri görkəmini müəyyən edən bədii və ya bədii-konstruktiv həlldir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarı [6] ilə təsdiq edilmiş xidmət haqlarına müvafiq olaraq bir sənaye nümunəsinə aid iddia sənədinin ekspertizası üçün (ilkin ekspertiza da daxil olmaqla) – 20 AZN, iddia sənədlərinə aid məlumatların dərc edilməsi üçün 6 AZN xidmət haqqı ödənilməlidir. Əgər iddia sənədinə aid olan məlumatların 6 aydan tez  olaraq dərc olunması haqqında iddiaçı

vəsatət verirsə, belə olduğu təqdirdə 30 manat kimi nəzərdə tutulan məbləğdə olan pul vəsaitinin tez bir zamanda ödənilməsi mütləq şəkildə təmin edilməlidir.

Sənaye nümunəsi haqqında iddia sənədinin yaxud patentlə əlaqədar hüquqların başqasına verilməsi Əqli Mülkiyyət Agentliyində qeydiyyata alınır.

Azərbaycan Respublikasının fiziki və ya hüquqi şəxsləri sənaye nümunəsi üçün beynəlxalq qeydiyyatın alınması üçün iddia sənədini Agentliyə təqdim edə bilərlər. [11]

Əmtəə nişanı - sahibkarın əmtəələrini və yaxud xidmətlərini başqa sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir olunan nişan və ya nişanların hər hansı bir kombinasiyasıdır.

Əmtəə nişanı kimi bu sadalanan nişanlar qeydiyyata alına bilər: sözlər, şəxsi adlar, hərflər,rəqəmlər, təsviri elementlər, əmtəələrin forması və ya onların qablaşdırılması, rənglərin və yuxarıda göstərilənlərin hər hansı kombinasiyası. [12]



**Şəkil 2. Burberry çek nümunəsinin təxmini təsviri.**

Nümunə Burberry Ltd-nin qeydə alınmış ticarət nişanıdır.

“™” ( əmtəə nişanı simvolu ) və “®” ( qeydiyyatdan keçmiş ticarət nişanı simvolu ) ticarət nişanlarını göstərmək üçün istifadə oluna bilər; sonuncu yalnız qeydiyyatdan keçmiş əmtəə nişanının sahibinin istifadəsi üçündür. [13]




**Şəkil 3. Qeydə alınmış ticarət nişanı simvolu və Ticarət nişanı simvolu**

Ticarət nişanının istehsalçısının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə ərizəsi təqdim etməsi əsasında ona Şəhadətnamə verilir. Təqdim olunan əmtəə nişanını ifadə edən işarələrin özündən əvvəl bəlli olan əmtəə nişanına bənzərliyi vəziyyətlərində, bənzərlik səviyyəsinin yaxınlığı, daha dəqiq ifadə ilə, bənzərliyin qarışıq salma

səviyyəsində olması qəti yolverilməzdir. Əmtəə nişanının qeydiyyata alınması məqsədilə fərqlilik tələbi lazımi şərtdir. [9, s.8-10]

**Patent hüququ**

Azərbaycan Respublikasının Konstitusiyasının 30-cu maddəsində [1] vurğulanır ki, hamı əqli mülkiyyət hüququna malikdir. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun digər növləri qanunlar çərçivəsində qorunması təmin edilir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 2.3-ci maddəsində görə, ailə, əmək münasibətləri, təbii ehtiyatlardan istifadə, ətraf mühitin mühafizəsi, müəlliflik hüququ və əlaqədar hüquqlar ilə əlaqədar münasibətlər, əgər ailə, əmək, torpaq, təbiəti mühafizə, müəlliflik və başqa xüsusi qanunvericilikdə bir qayda yoxdursa, mülki qanunvericilik və başqa hüquqi aktlar vasitəsilə tənzimlənir.

Müvafiq sahəni tənzimləyən başlıca qanunvericilik aktı qismində Patent haqqında 10 iyun 1997-ci il tarixli Azərbaycan Respublikasının Qanunu çıxış edir. Bu qanun ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin yaradılması, qorunması və istifadəsi ilə bağlı meydana gələn əmlak münasibətlərini və onlarla bağlı şəxsi qeyri- əmlak münasibətlərinin tənzimlənməsini təmin edir.

Əqli mülkiyyət hüquqlarının tənzimlənməsi və müdafiəsi ilə əlaqədar Azərbaycan Respublikasının bir sıra beynəlxalq konvensiyalara qoşulmaqla iştirakçısı olmuşdur. [10, s.356-357]

Patentin qüvvədə olma müddəti, patentlə verilən hüquqi mühafizənin qüvvədə olma müddəti deməkdir.

Patent bu müddətlərdə qüvvədə olur:1) ixtira üçün - 20 il; 2) faydalı model - 10 il; 3) sənaye nümunəsi üçün - 10 il. [8, s.252-258]



Qrafik 1. EUİPO tərəfindən ticarət nişanlarının illər üzrə müraciətləri.

Bu qrafik "EUİPO" tərəfindən illər üzrə olan ticarət nişanı müraciətlərini əks etdirir. Qrafikdə hər il üzrə müraciət miqdarı da göstərilib.

1. Ümumi artım trendi

-2008-dən 2021-ci ilə qədər olan müddətdə ticarət nişanı üçün olan müraciətlərdə davamlı artım müşahidə edilir.

-2020 və 2021-ci illər müddətində kəskin artım müşahidə olunur, bu da pandemiya dövründə müəssisələrin onlayn brendləşməyə nisbətən daha çox önəm verməsi ilə bağlı ola bilər.

2. 2022-ci ildə azalma

-2022-ci ildə müraciətlərin miqdarı 15,2% azalıb.

-Bunun mümkün olan səbəbləri arasında iqtisadi geriləmə ilə yanaşı biznes mühitinə məxsus qeyri- müəyyənlik ola bilər.

3. 2023-cü ildə qismən bərpa

-2023-cü ildə müraciət miqdarı 4% artaraq 144,214-ə çatıb.

-Bu, ticarət nişanlarına göstərilən marağın təzədən yüksəlməyə başladığını göstərə bilər. [14]

**Müqayisəli analiz təhlili**. Azərbaycanın intellektual mülkiyyət sektorunda ticarət nişanlari ilə yanaşı sənaye nümunələrinin hüquqi qorunması bir çox beynəlxalq konvensiyalar və eyni zamanda milli qanunvericilik aktları vasitəsilə bu çərçivədə tənzimlənir. Bəhs edilən sferanın inkişafını və effektivliyini anlamaq məqsədilə onun müxtəlif dövlətlərdəki tənzimlənmə üsulları ilə müqayisəli şəkildə təhlil aparılması məqsədəmüvafiqdir.

1. Azərbaycan konteksti. Azərbaycan intellektual mülkiyyət hüquqlarının mühafizəsinin təmin olunması məqsədilə bir çox beynəlxalq müqavilələrə qoşulub. Bu siyahıya "Paris Konvensiyası" (1886), "Patent Əməkdaşlıq Müqaviləsi" (PCT) və "Ümumdünya Ticarət Təşkilatının TRİPS razılaşması aiddir.

Milli səviyyədə olan tənzimləmə əsas olaraq aşağıda göstərilən qanunlar vasitəsilə həyata keçirilir:

-"Əqlli Mülkiyyət Haqqında" Qanun (1998)

-"Patent Haqqında" Qanun (1997)

-"Ticarət Nişanları və Coğrafi Göstəricilər Haqqında" Qanun (1998)

Sənaye nümunələrinin qorunması "Azərbaycan Respublikası Patent və Əmtəə Nişanları Mərkəzi" vasitəsilə təmin edilir. Sənaye nümunəsinə patent alınması məqsədilə müraciət 5 il

müddətinə təqdim olunur və maksimum 25 ilə kimi uzadılması mümkündür. Əmtəə nişanları isə 10 illik müdafiə vaxtına malikdir, həmçinin sonsuz dəfə uzadılması da mümkündür.

2. Beynəlxalq müqayisə. Aşağıdakı cədvəldə dövlətlərin təcrübələri ilə Azərbaycan dövlətinin təcrübələri müqayisə olunmuşdur:

Azərbaycan dövlətinin təcrübələri müqayisə olunmuşdur:

| **Dövlət** | **Sənaye nümunələri müdafiəsi** | **Ticarət nişanları müdafiəsi** | **Xüsusiyyətlər** |
|---|---|---|---|
| Azərbaycan | 5 il (25 ilə kimi müddəti uzadıla bilər) | 10 il (sonsuz uzadılması mümkündür) | Paris Konvensiyası ilə yanaşı TRIPS razılaşması çərçivəsində tənzimlənir |
| ABŞ | 14 ilə kimi (dizayn patenti üçün) | 10 il (sonsuz yenilənməsi mümkündür) | “First to use” prinsipi tətbiq edilir |
| Avropa İttifaqı | 5 il (maksimum 25 il müddətinə kimi uzadılması mümkündür | 10 il (sonsuz yenilənməsi mümkündür) | Avropa Birliyində birləşdirilmiş “EUİPO” ilə tənzimlənir |
| Türkiyə | 5 il (maksimum 25 ilə kimi) | 10 il (sonsuz yenilənməsi mümkündür) | Coğrafi göstəricilərə xüsusi olaraq əhəmiyyət verilir |
| Rusiya | 5 il (maksimum 25 ilə kimi) | 10 il (sonsuz yenilənməsi mümkündür) | Post-sovet məkanında harmonizasiya edilmiş sistem vadır |

Cədvəl 2. Sənaye nümunələri və ticarət nişanlarının müdafiəsi və xüsusiyyətlərinin müqayisəsi

3. Oxşarlıqlar və fərqlər.

Oxşarlıqlar:

-Beynəlxalq Konvensiyalar: Azərbaycan, Türkiyə, Avropa Birliyi, ABŞ və Rusiya kimi ölkələr “Paris Konvensiyası”nın və eyni zamanda “TRIPS” razılaşmasınının üzvüdürlər.

-Müddət və uzadılma: Sənaye nümunələrinə görə bir çox dövlətlər tərəfindən 5 ildən başlamaqla 25 ilə kimi uzadılması mümkün olan sistemdən istifadə olunur. Əmtəə nişanları isə 10 illik olan müddətlə mühafizə olunur və həmçinin sonsuz dəfə təzələnə bilər.

-Patent və Ticarət nişanları idarələri: Hər bir dövlətdə müvafiq olan dövlət qurumları (Azərbaycan Patent Mərkəzi, EUIPO, UPSTO və digərləri) bu hüquqları qeydə almaqla bərabər mühafizə edir.

Fərqlər:

-ABŞ, Azərbaycan və başqaları: ABŞ-da əmtəə nişanlarının qeydiyyatı "First to Use" prinsipinə əsaslanır (birinci kim tərəfindən istifadə olunubsa o hüququ alır), Azərbaycan və başqa dövlətlərdə isə "First to File" (birinci kim tərəfindən istifadə olunubsa o hüququ əldə edir), prinsipi keçərli olur.

-Avropa İttifaqında birgə qeydiyyat sistemi: Avropa İttifaqında "EUIPO" ilə müraciət olunması sayəsində bütün üzv olan ölkələrdə əmtəə nişanının və sənaye nümunəsinin mühafizəsinin təmin olunması mümkündür. Azərbaycanda isə bu proses milli səviyyədə həyata keçirilir.

-Türkiyənin coğrafi göstəricilərə olan yanaşması: Türkiyə ticarət nişanlarının mühafizə olunması ilə bərabər coğrafi göstəricilərə də xüsusi olaraq diqqət yetirir və bu da milli brendlərin mühafizə olunmasına müsbət təsir edir.

**Nəticə**

Sənaye nümunələrinin hüquq qorunması, əqli mülkiyyətin bir növü kimi, məhsulların unikal görünüş və dizaynlarının qorunmasını təmin edir. Bu, sahibkarlar üçün iqtisadi üstünlük, eyni zamanda istehlakçılar üçün keyfiyyətli məhsul seçimini təmin edir.

Bir sıra ticarət nişanları mövcuddur ki, onlar başqa ölkələrdə qeydiyyata alınmadan qorunurlar. Belə ki, "Sənaye Mülkiyyətinin Mühafizəsi üzrə Paris Konvensiyası"nın 6-cı maddəsinə [5] görə mənşə ölkəsində lazımi formada qeydiyyatdan keçmiş hər bir ticarət nişanı İttifaqın digər ölkələrində elan oluna bilər və bu maddədəki düzəlişlərlə qorunur.

Əqli mülkiyyətin əsas obyektlərindən biri olan ticarət nişanlarının əsas funksiyasının fərqləndiricilik olduğunu nəzərə alsaq, mövcud ticarət nişanı ilə eyni, yaxud istehlakçını çaşdıracaq səviyyədə bənzər ticarət nişanının istifadəsi bazarda haqsız rəqabətin meydana gəlməsinə səbəb olur.

Əsas təkliflər aşağıdakılardır:

- Müasir tələblərə və standartlara vavab verən texnologiyalardan,innovativ yeniliklərdən istifadə etməklə sənaye nümunələri və ticarət nişanlarının qorunmasının səmərəli təşkil edilməsi.
- Süni intellekt texnologiyasının nailiyyətlərindən istifadə edilməsi və bu sahədə onun geniş tətbiq edilməsi.

- Müasir dövrdə sənaye nümunələri və ticarət nişanlarının qorunması üçün elektron xidmətlərdən- elektron imzadan istifadə edilməsi.
- Bu sahə üzrə səmərəliliyi təmin etmək üçün yeni ixtisas sahələrin yaradılması və yüksək ixtisaslı kadrların yetişdirilməsi.
- Beynəlxalq təcrübəni araşdırıb təhlil edilməsi,öyrənilməsi və onun müsbət cəhətlərinin bu sahədə tətbiq edilməsi.

## Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası Konstitusiyası
2. Azərbaycan Respublikası Mülki Məcəlləsi
3. Patent haqqında 10 iyun 1997-ci il tarixli Azərbaycan Respublikasının Qanunu
4. "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" 22 may 2012-ci il tarixli Azərbaycan Respublikası Qanunu
5. "Sənaye mülkiyyətinin mühafızəsi haqqında" 20 mart 1883-cü il tarixli Paris Konvensiyası
6.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarı
7. Allahverdiyev S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları. Dərslik. «Digesta» nəşriyyatı. Bakı, 2006. 348 səh.
8. Əliyev Ə., Novruzov Q., Rzayeva G., Səfərov A., Məmmədrzalı Ş. İnsan hüquqları, Əqli mülkiyyət və İnformasiya: Qarşılıqlı hüquqi əlaqələr Bakı – 2021. 168 səh.
9. Milli brendlərimizi qoruyaq (Milli brendlərin hüquqiqorunması və onların müəllifhüquqnöqteyi-nəzərindən qeydiyyatı) Bakı – 2018. 17 səh
10. Göyüşov R., Bayramov R., Yüsifov Ş. Mülki hüquq, ümumi hissə, mühazirələr toplusu. Qanun nəşriyyatı 2013. 492 səh.
11.https://patent.copat.gov.az/slider-slider1
12.https://patent.copat.gov.az/slider-slider3
13. https://en.wikipedia.org/wiki/Trademark
14.https://clarivate.com/intellectual-property/blog/trademarks-on-the-rise-applications-recover-in-2023-after-a-dip-in-2022/

# PROTECTİON OF INDUSTRİAL DESİGNS AND TRADEMARKS: LEGAL FRAMEWORK AND RECOMMENDATİONS

**E.M. Mammadov**
Azerbaijan University, 71 Jeyhun Hajibeyli Street, Baku, Azerbaijan

**Abstract.** The article examines the legal regulation processes and challenges of industrial designs and trademarks. Its objective is to enhance the efficiency of their protection through the use of technological innovations. Using an analytical method, the practices of developed countries were compared, and measures to prevent piracy, plagiarism, and patent infringements were evaluated. Ultimately, it proposes increasing legal liability and implementing a strengthened international normative framework.

**Keywords:** industrial design, trademark, patent, patent law, intellectual property.